**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun əldə etdiyi Zəfərlə tarixi ədalət bərpa olundu, torpaqlarımız işğaldan azad edildi. İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin bərpası prosesinə başlanıldı, hazırda bərpa-quruculuq işləri qarşıya qoyulan məqsədlər çərçivəsində, nəzərdə tutulan icra mexanizmləri əsasında həyata keçirilir.**



# Qarabağ və Şərqi Zəngəzurda əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün genişmiqyaslı işlər görülür

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Bu prioritetlərdən biri də işğaldan azad edilmiş ərazilərə dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyanın təmin olunmasıdır. Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın prioritet istiqamətlərində işğaldan azad edilmiş ərazilərdə təhlükəsiz yaşayışın, dövlət idarəetməsinin təşkili, yaşayış məntəqələrinin tikintisi, əhalinin geri qayıdışı, ərazilərdə dayanıqlı icmaların yaradılması, strateji əhəmiyyətli infrastrukturun qurulması, dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının inteqrasiyası, ekoloji mühitin yaxşılaşdırılması məsələləri öz əksini tapır.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün zəruri infrastrukturun yaradılması çərçivəsində şəhər və kəndlərin, təhsil, səhiyyə obyektlərinin, hava limanlarının tikintisi istiqamətində işlər davam etdirilir. Müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılır.

Binaların və fərdi yaşayış evlərinin tikintisi, abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyəti təmin etmək məqsədilə ölkə rəhbərinin müvafiq fərmanları ilə "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti", "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti", "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" və "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxslər yaradılmışdır. Bu işlərə maliyyə dəstəyinin göstərilməsi, sərmayələrin cəlb edilməsi, həmçinin maarifləndirmə və zəruri təşviqat işlərinin həyata keçirilməsi məqsədilə Prezident İlham Əliyevin 2021-ci il 4 yanvar tarixli fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır.

İqtisadi Zonası" Sənaye Parkı da irimiqyaslı layihələrdən biridir. Şərqi Zəngəzurun Arazboyu ərazisinin düzənlik relyefə malik olması Sənaye Parkının fəaliyyəti üçün əlverişli şərait yaradır ki, bu da investorların diqqətini cəlb edir. Sənaye Parkının yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının hazırda 16 rezidenti və 2 qeyri-rezidenti var. Sənaye parkında görülmüş işlərə rezidentlər tərəfindən bu günədək 29,6 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb. Parkın 30 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Hazırda işğaldan azad edilmiş ərazilərdə mövcud sənaye parklarında 15-dən çox müəssisənin tikintisi istiqamətində işlər aparılır. Cari ildə Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında tütün məmulatlarının, dekorativ daşların, müxtəlif çeşiddə yapışqan lentlərin, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsalı müəssisələrinin fəaliyyətə başlaması, plastik taraların, yüksək gərginlikli elektrik enerjisinin ötürülməsi üçün müxtəlif metal elektrik dirəklərin istehsalı müəssisələrinin təməlqoyması planlaşdırılır.

Sənaye zonalarında sahibkarlığın inkişafına yüksək səviyyədə şərait yaradılıb, rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur, dövlət vəsaiti hesabına qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Rezidentlər qeydiyyata alındıqları zamandan 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların, qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. Bundan başqa, mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bura xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma daxildir.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda bir



İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsinə də xüsusi diqqət göstərilir. Bu baxımdan həmin ərazilərdə istehsal müəssisələri, sənaye zonaları yaradılır və fəaliyyət göstərən sənaye parklarına investorların cəlb edilməsi istiqamətində işlər sürətlə davam etdirilir.

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir ki, bunlardan biri Ağdam, digəri Cəbrayıl rayonundadır. Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkından sonra Ağdam Sənaye Parkı ölkədə ikinci böyük parkdır. 190 hektar ərazidə yaradılan sənaye parkının 70 faizə yaxın hissəsi sahibkarların istifadəsinə verilib. Parkda 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Həmin rezidentlər tərəfindən sənaye parkına 276 milyon manatdan çox investisiya yatırılması, 2400-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. İndiyədək parkda sahibkarlar tərəfindən görülmüş işlərə 107 milyon manatdan çox investisiya yatırılıb, 457 daimi iş yeri yaradılıb. Ağdam Sənaye Parkında hazırda 9 müəssisə fəaliyyət göstərir. Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək.

Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi

sıra təhsil müəssisələri istifadəyə verilib. Füzuli, Zəngilan, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa, Laçın, Ağdam rayonlarında təhsil müəssisələrinin tikintisi işləri davam edir. Azərbaycanla qarşılıqlı əməkdaşlıq və dostluq çərçivəsində qardaş ölkələr tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpasına mənəvi dəstək məqsədli layihələr həyata keçirilir. Özbəkistan Respublikasının maliyyə vəsaiti hesabına Füzulidə 960 şagird yerlik Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbi, Qazaxıstan Respublikasının "Bİ-İndustrial" şirkətinin maliyyə vəsaiti hesabına Füzuli şəhərində 600 şagird yerlik "Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi" istifadəyə verilmişdir. Bundan başqa, Qırğızıstan Respublikasının maliyyə vəsaiti hesabına Xıdırlı kənd tam orta məktəbinin tikintisi həyata keçirilir.

Hazırda Şuşada, Xocalıda, Zəngilanda, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Ağdərədə, Xocavənddə, Qubadlıda tikinti işləri yüksək səviyyədə davam etdirilir. Bu işlərin hər biri uğurla bitdikdən sonra əminliklə deyə bilərik ki, Qarabağ və Şərqi Zəngəzur nəinki ölkəmizdə, hətta dünyada sayılıb-seçilən, turizm üçün ən əlverişli gözəl məkanlardan biri olacaq.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika.- 2025.- 13 fevral (№ 32).- S.18.